**15.09.2023: xəbər**

**A new academic year begins at Khazar University**

On September 15, 2023, a ceremony dedicated to the start of a new academic year was held at Khazar University. The university administration, faculty deans and heads of departments, faculty members, students admitted to the university and parents attended the event.

The ceremony started with the State Anthem of the Republic of Azerbaijan. Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, delivered a speech and, in addition to providing general information about the university, spoke about its unique features. He noted that the University, which was established as an English-language higher education institution, developed through integration into the world education system and managed to train highly qualified graduates.

The speaker especially emphasized that in the light of the opening of the university to the world, substantial work is underway to ensure that students are active carriers of national and moral values. Khazar University ranks high in the world and regional rankings of universities.

Rector of the University Assoc. Prof. Irada Khalilova, informed about the effective conditions created for the education of students, noted that cultural and sports events are held regularly for their comprehensive development, and that Khazar University is a student-centered higher education institution.

Dr. Fakhranda Afandiyeva, dean of the School of Science and Engineering, Dr. Jeyhun Mammadov, dean of the School of Economics and Management, Assoc. Prof. Elza Samadova, dean of the School of Humanities, Education and Social Sciences, spoke and gave information about the faculties and specialties.

The speakers congratulated the students and parents, wished the students a successful educational life.

Khazar University's Girls Dance Group performed at the event.

At the end, the students were invited to the auditorium and another new academic year began at Khazar University.

**Xəzər Universitetində yeni dərs ili başladı**

2023-cü il sentyabrın 15-də Xəzər Universitetində yeni dərs ilinin başlaması münasibətilə tədbir keçirildi. Tədbirdə universitetin rəhbərliyi, fakültə dekanları və departament müdirləri, müəllimlər, universitetə qəbul olunmuş tələbələr və valideynlər iştirak edirdilər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başladı. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı çıxış edərək, universitet haqqında ümumi məlumat verməklə yanaşı, özünəməxsus xüsusiyyətləri haqqında danışdı. Qeyd etdi ki, ingilisdilli ali təhsil müəssisəsi kimi yaranan universitet dünya təhsil sisteminə inteqrasiya yolu ilə inkişaf edərək, yüksək ixtisaslı məzunlar yetişdirməyə nail olmuşdur.

Natiq xüsusilə vurğuladı ki, universitetin dünyaya açılması fonunda tələbələrin milli-mənəvi dəyərlərin fəal daşıyıcıları olması istiqamətində əsaslı iş aparılır. Xəzər Universiteti ali məktəblərin dünya və regional reytinqlərində yüksələn xətt ilə yer almaqdadır.

Universitetin rektoru Dos. İradə Xəlilova tələbələrin təhsili üçün yaradılmış səmərəli şərait haqqında məlumat verdi, onların hərtərəfli inkişafı üçün mədəni və idman tədbirlərinin müntəzəm keçirildiyini, Xəzər Universitetinin tələbə mərkəzli bir ali məktəb olduğunu nəzərə çatdırdı.

Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Dos. Elza Səmədova çıxış edərək, fakültələr və ixtisaslar haqqında məlumat verdilər.

Çıxış edənlər tələbələri və valideynləri təbrik etdilər, tələbələrə uğurlu təhsil həyatı arzuladılar.

Tədbirdə Xəzər Universitetinin Qızlardan ibarət Rəqs Qrupunun ifası təqdim olundu.

Sonda tələbələr auditoriyalara dəvət olundular və Xəzər Universitetində daha bir yeni dərs ili başladı.


Khazar
University


Khazar
University


Khazar
University


Khazar
University


Khazar
University

































University




















京都











JUST DO IT.




Khazar
University






Khazar
University
Address: 41 Mahsati str.














































